**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**QƏRAR № 19**

**Bakı şəhəri, 22 dekabr 2016-cı il**

# "Təbii qazın ölkədaxili tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 28 noyabr tarixli 18 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **QƏRARA ALIR**:

1. "Təbii qazın ölkədaxili tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 28 noyabr tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş əlavənin cədvəl hissəsinin 4.1.1-ci və 4.1.2-ci sətirlərində "1500" rəqəmi "1700" rəqəmi ilə əvəz edilsin.

2. Bu qərar 2016-cı il 1 dekabr tarixindən tətbiq edilsin.

**Azərbaycan Respublikası**
**Tarif (qiymət) Şurasının sədri** **Şahin Mustafayev**